https://doi.org/10.59849/2410-5600.2025.2.50

UOT: 008. ; 78.

**Briliant Hacıyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş, İstiqlaliyyət küç. 26*
*e-mail: kitabxana.elyazmalar@gmail.com*

# AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİNİN PARLAQ GÜNƏŞİ ÜZEYİR BƏY HACIBƏYLİ – 140

*Bir azərbaycanlı, Azərbaycanın Prezidenti kimi fəxr edirəm ki, Azərbaycan xalqı belə zəngin mədəniyyətə, zəngin incəsənətə, peşəkar musiqiyə malikdir. Azərbaycanda peşəkar musiqinin əsasını böyük Üzeyir Hacıbəyov qoyubdur.*

***Heydər Əliyev,***
***Azərbaycan xalqının Ümummilli lideri***



*Üzeyir Hacıbəyli Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi ən görkəmli şəxsiyyətlərdən biridir.*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Xülasə**

Zaman ötüb-keçdikcə xatirələr, təsəvvürlər tədricən sönükləşir. Hadisələrin əhəmiyyəti sanki kiçilir. Azərbaycan tarixində elə adlar olub ki, onların qarşısında zaman belə gücsüzdür. Zamanın fövqündə dayanmış, həmişə də fəxrlə yad edilən belə adlardan biri də Üzeyir bəy Hacıbəylidir. Bəli, vaxt ötdükcə onun unudulmaz xatirəsi daha əziz, əhəmiyyəti isə daha mühüm görünür. Böyük bəstəkar, müasir musiqimizin banisi, Azərbaycan bəstəkarlıq məktəbinin atası, nadir istedadlı sənətkar, ictimai xadim... Budur Üzeyir bəyin doğma xalqın mədəni inkişaf yolunda qoyduğu silinməz izlər.

***Açar sözlər:*** *Musiqi mədəniyyəti, Azərbaycan musiqisi, müasir musiqimizin banisi, Üzeyir bəy Hacıbəyli, bəstəkar*

## Giriş

*2025-ci il Azərbaycanın musiqi və mədəniyyət aləmi üçün xüsusi əhəmiyyət daşıyır - bu il böyük bəstəkar, peşəkar milli musiqi məktəbinin banisi, akademik Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi qeyd olunur. Üzeyir Hacıbəylinin zəngin yaradıcılığı Şərq musiqi ənənələrinin tarixində əsl dönüş nöqtəsi olmuşdur. Onun fəaliyyəti xalq musiqisi ilə klassik musiqi formalarının harmonik vəhdətini yaradan bir yolun başlanğıcı sayılır. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələrindən biri olan Üzeyir bəy sadəcə musiqi əsərləri yaratmaqla kifayətlənməmişdir, həm də yeni musiqi təfəkkürünün əsasını qoymuş maarifçi və mütəfəkkir idi. Onun milli bəstəkarlıq məktəbinin formalaşmasında, Şərqdə opera janrının inkişafında və musiqi təhsilinin təşəkkülündə əvəzsiz xidmətləri vardır. Bu gün Üzeyir Hacıbəylinin irsi nəinki Azərbaycan üçün, həm də ümumilikdə dünya musiqi mədəniyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Bəstəkarın yaradıcılığı hər zaman elmin müxtəlif sahələrində aktual olmuşdur. Musiqişünaslar dərin məzmunlu musiqi irsini, ədəbiyyatşünaslar zəngin dramaturji əsərlərini, filosoflar isə ümumilikdə bəstəkarın yaradıcılığının hər*

*qatında olan məna və ideyalarının fəlsəfi görüşlərini əsas tutaraq elmi-nəzəri çalışmalar ərsəyə gətirmişdilər. Böyük bəstəkarın 140 illiyi münasibətilə onun həyat və yaradıcılığına dair fundamental tədqiqatlara yenidən diqqət yetirmək xüsusi aktuallıq kəsb edir. Bu həm musiqi ictimaiyyəti, həm də geniş oxucu auditoriyası üçün Üzeyir Hacıbəylini daha dərindən anlamaq və dəyərləndirmək imkanı yaradır.* [2]

Azərbaycan musiqisində, musiqi elmində Mir Möhsün Nəvvabdan sonra yeni dövrü, yeni mərhələni təşkil edən böyük sənətkar, Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyət, Azərbaycan incəsənətinin qızıl budağı Üzeyir bəy Hacıbəyli. 140 il öncə doğma Qarabağda dünyanın bütün sədlərini sənət qüdrəti ilə fəth edən dahi Üzeyir bəy dünyaya gəldi. Gözəl sənəti ilə özünə və xalqına başucalığı, şöhrət gətirdi. Füzulinin aşiqanə sözü, lirikası onun ürəkləri riqqətə gətirən musiqisi ilə birləşdi. 23 yaşında Şərqdə ilk operanın müəllifi oldu. Ömrünü nur kimi xalqının mədəniyyətini işıqlandırmağa həsr etdi. O, dövrünün mücahididi. Millət aşiqi, vətən təəssübkeşi, sənət cəfakeşidi. Həmişə əlçatmazdı, qibləgahdı. Və heç şübhəsiz, bütün zamanların sınağından üzüağ çıxan ürfan adamı, dahidi. Üzeyir bəyin ünvanına, məncə, bu qiymət zərrəcə artıq deyil. Azərbaycan mədəniyyətinə misilsiz töhfələr vermiş bir insanın dəyərini başqa cür çatdırmaq mümkünsüzdü. Azərbaycan xalqı xoşbəxtdir ki, Üzeyir bəy kimi oğlu var (Bəstəkarlar İttifaqının sədri, xalq artisti Firəngiz Əlizadə). [6]

"Üzeyir bəy Hacıbəyov. Dahi. Sadəcə, dahi. Dahiyanə bir istedadla, qədim ənənələri olan, əsrlərdən-əsrlərə ötürülən milli musiqimiz, muğamımız onun qələmində yeni janrda, monumental əzəmətlə «dirildi». O, ətalət və gerilik zülmətində boğulan Azərbaycanda maarif və mədəniyyət məşəli yandırdı."

"Üzeyir dünyası... Bu dünyanı əlbətdə Üzeyir Hacıbəyov özü yaradıb – zəngin tərcümeyi-halıyla, müxtəlif və mürəkkəb dövrlərdən keçən ömür yoluyla, parlaq şəxsiyyətiylə, çoxcəhətli fəaliyyəti ilə və şübhəsiz, ilk növbədə ölümsüz yaradıcılığı ilə. Üzeyir Hacıbəyov XX əsr Azərbaycan musiqisinin ilk böyük yaradıcısı olmaqla bir sırada, həm də bu musiqinin araşdırıcısı, tədqiqatçısı, onun əsaslarını və prinsiplərini dərindən-dərinə bilən və şərh edən, ümumiləşdirən, sistemləşdirən görkəmli alim idi." [1]

Azərbaycan mədəniyyəti tarixində misilsiz xidmətləri olan Üzeyir bəyin ana yurdu musiqi-sənət beşiyi Şuşa şəhəridir. Dahi musiqiçinin uşaqlığı qədim Qarabağımızın tacı olan Şuşada keçib. Üzeyir dühasının qaynaqları da qarlı zirvələrin, dibi görünməz uçurumların, dərin dərələrin dövrələdiyi, sərin səhər nəsimlərinin oxşayıb tumarladığı, bulaqları bal dadan Şuşadır! Ulu öndər Heydər Əliyev dahi bəstəkarın yaradıcılığını, xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: "Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur".[8] Məhz Prezident Heydər Əliyevin 1995-ci ildə – bəstəkarın 110 illik yubileyi münasibətilə imzaladığı fərmanla hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü (Üzeyir Musiqi Günü) kimi qeyd olunur.

Son 30 ilə yaxın dövrdə Üzeyir bəyin vətəni, Azərbaycanın musiqi beşiyi gözəl Şuşa düşmən işğalı altında idi. 2020-ci ilin sentyabrında başlanan 44 günlük Vətən Müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusunun yüksək döyüş qabiliyyəti, müasir texnologiyaların istifadəsi və xalqın birliyi sayəsində Azərbaycan tam Qələbə qazandı, işğalçıları qədim Azərbaycan torpaqlarından qovdu və azad edilmiş bütün torpaqlarda, Şuşada Azərbaycan bayrağını ucaltdı. Uzun fasilədən sonra Cıdır düzündə – hər birimiz üçün müqəddəs olan Şuşada Xarıbülbül festivalının açılışında Prezident İlham Əliyevin dediyi sözlər bizdə qürur hissi və azad gələcəyə böyük inam yaratdı: "Şuşa Azərbaycan xalqının milli sərvətidir. Bu yaxınlarda Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha göstərir. Şuşa qədim Azərbaycan şəhəridir. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar. Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarım əsarətdə

idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu. Bəli, biz 8 noyabrda Şuşaya döyüşərək, vuruşaraq, qan tökərək qayıtmışıq. Ancaq bu gün Azərbaycan mədəniyyəti, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri Şuşaya qayıdıblar və bu qayıdış reallıqdır, bu reallıqla hər kəs hesablaşmalıdır. Bəli, dahi Üzeyir bəyin ruhu indi rahatdır, doğma Şuşa çəmənləri, dağları, bulaqları, mədəniyyət abidələri ilə bu torpağın əsl sahiblərini uzun həsrətdən sonra böyük sevinclə qarşılayır." [7]

Şuşa işğaldan azad edildikdən sonra Üzeyir bəyin doğma yurduna mədəniyyətimizin də qayıdışı başlanıb. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bəstəkarın yeni heykəli hazırlanıb. Dövlət başçısının iştirakı ilə 2021-ci il avqustun 29-da Şuşa şəhərində abidənin açılışı keçirilib. 2021-ci il sentyabrın 18-ində uzun illərdən sonra ilk dəfə Milli Musiqi Günü çərçivəsində Şuşada görkəmli bəstəkara həsr olunmuş Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti gerçəkləşib. [4, s.10]

Üzeyir bəy Hacıbəyli 1948-ci ildə vəfat etmişdir, Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Üzeyir Hacıbəyov ömrünün son gününə qədər həyatını Azərbaycan mədəniyyətinin, musiqisinin inkişafına həsr etmişdir. Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyətlərdən idi. [3, s.158-164]

Bir vaxtlar Üzeyir Hacıbəylinin söylədiyi: Bəşəriyyət tarixində elə sənətkarlar və şəxsiyyətlər var ki, "...onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümum insaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cürə adamlar nəinki sağlığında, öləndən sonra da camaata mənfəət veriblər." [5, s.4] Sağlığında varlığı, öləndən sonra şərəfli adı ilə doğma xalqımızın başını ucaldan Üzeyir Hacıbəylinin dediyi bu sözlər ilk növbədə bəstəkarın öz ünvanına aid edilir.

## Nəticə

*Üzeyir Hacıbəyli haqqında nə qədər danışılsa da, yazılsa da, yenə də azdır. Həyatda elə insanlar olur ki, onlar aramızdan getdikdən sonra belə yaşamağa davam edirlər. Üzeyir bəy dünyadan Azərbaycan musiqisinin parlaq günəşi kimi köçdü. Üzeyir bəy hər bir azərbaycanlı üçün qürur duyğusudur. Dünyaya gəlişi bayramdır. Bəzən bu və ya digər sənətkarın əsərlərini təhlil edərkən bir fikir üzərində qəti dayanırıq: "Onun şah əsəri filan opera, simfoniya, yaxud poemadır". Amma bu fikri dahi bəstəkarımız Üzeyir Hacıbəylinin əsərləri haqqında söyləmək qeyri-mümkündür. Çünki onun bütün əsərləri şah, qəlbəyatan, ürəkoxşayandır. Hacıbəyli xalqımıza çoxşaxəli, əbədiyaşar zəngin bir irs qoyub gedib. Bu irsə sahib çıxmaq, onu təbliğ etmək müqəddəs borcumuz və vacib vəzifəmizdir. Onun yaratdığı bu dünyanı gələcəyimiz naminə qoruyub saxlamalıyıq. O, xalq üçün yaşamışdır, bu səbəbdən də xalq onu əsrlərlə yaşadacaqdır!*

## Ədəbiyyat siyahısı:

1. Anar. Dahi bəstəkarımız // http://uzeyirbook.musigi-dunya.az/
2. https://525.az/news/310938-dahi-azerbaycan-bestekarinin-yaradiciliq-irsinin-analitik-tedqiqi
3. Heydər Əliyev mədəni irsimizin keşiyində. K.2. - Bakı, 2001. - S. 158-164.
4. Mükərrəmoğlu M. Şuşa mədəniyyətinin inciləri – Üzeyir bəy Hacıbəyli / M.Mükərrəmoğlu.- // "Xalq" qəzeti. - 2022. - 30 mart. - S.10.
5. Üzeyir Hacıbəyli: biblioqrafiya /tərtib edənlər: R.Orucəliyeva, H.Haşımova və b.; elmi red. və ön sözün müəl. Z.Səfərova; ixt. red. və bur. məsul K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası. - Yenidən işlənilmiş və təkmilləşdirilmiş II nəşri. - Bakı, 2015.- 539 s. - (Azərbaycanın görkəmli şəxsiyyətləri).
6. https://az.trend.az/azerbaijan/culture/2434847.html

7. http://anl.az/down/meqale/iqtisadiyyat/2021/sentyabr/756462(meqale).pdf
8. https://lib.aliyevheritage.org/az/7358984.html

**Briliant Hajiyeva**

**The bright sun of Azerbaijan musical culture**
**Uzeyir bey Hajibeyli - 140**

***Summary***

As time passes, memories and imaginations gradually fade. The importance of events seems to diminish. There have been names in the history of Azerbaijan that even time is powerless against. One of such names that has stood above time and is always remembered with pride is Uzeyir bey Hajibeyli. Yes, as time passes, his unforgettable memory seems more precious and his importance more important. A great composer, the founder of our modern music, the father of the Azerbaijani composition school, a rare talented artist, a public figure... These are the indelible traces that Uzeyir left on the path of cultural development of his native people.

***Keywords:*** *Musical culture, Azerbaijani music, founder of our modern music, Uzeyir bey Hajibeyli, composer*

*Filologiya elmləri doktoru, dosent* ***Nailə Səmədova***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*